# Qida emalı üzrə müasir tədris-istehsalat emalatxanasının təqdimat mərasimi



İyulun 24-də Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində qida emalı və qida məhsullarının qurudulması üzrə müasir tədris-istehsalat emalatxanasının açılışı olub. Açılışda Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı, Peşə Təhsilinin İnkişafı Fondunun direktoru İdris Musayev, tərəfdaş təşkilatların təmsilçiləri, təhsil müəssisələrinin rəhbərləri, müəllimlər və tələbələr iştirak etmişlər. Tədbirdə çıxış edənlər peşə təhsilinin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edərək, peşə təhsilinin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndiyini, Azərbaycan və Türkiyə arasında həyata keçirilən bu layihələrin peşə təhsilinin əlçatanlığının və keyfiyyətinin artırılmasına, regionlarda yerli istehsalın inkişafı və gənclərin məşğulluq imkanlarının genişlənməsinə, əmək bazarının tələblərinə uyğun insan kapitalının formalaşdırılmasına və sosial-iqtisadi inkişafa mühüm töhfə verdiyini diqqətə çatdırmışlar. Sonda tədbir iştirakçıları emalatxana və laboratoriyalarla tanış olaraq qida məhsullarının emalı və qurudulması prosesini izləmiş, həmçinin tədbir çərçivəsində hazırlanmış məhsulların nümunələri ilə tanış olmuşlar.

# Yol infrastrukturu inkişafın özətidir

2026-cı ildə Azərbaycanda yol infrastrukturu həm regional nəqliyyat dəhlizlərinin genişləndirilməsi, həm də ölkə daxilindəki əsas ma-



gistralların və azad edilmiş ərazilərin bərpası istiqamətində mühüm mərhələni təşkil edir.

Beynəlxalq standartlara cavab verən bu günkü magistral yollarımız ölkəmizin simasını başdan-ba-



şa dəyişmişdir. Hazırda ölkədə yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi hesabına da irimiqyaslı layihələr icra olunur.

Müasir yol infrastrukturu artıq Azərbaycanda özünün layiqli yerini tutmuşdur. Magistral yollarımız ölkə iqtisadiyyatının şaxələndirilməsinə, regionlarımızın sürətli inkişafına, ən əsası isə, xalqın sosial rifahının yüksəldilməsinə öz töhfəsini verməkdədir.

Əsası Ulu Öndərimiz tərəfindən qoyulan inkişaf strategiyasını layiqincə davam etdirən Prezident İlham Əliyev ölkəmizdə bütün sahələr kimi, yol infrastrukturunu da daim diqqət mərkəzində saxlayır. Bütün bunların nəticəsidir ki, paytaxt Bakı və buradan regionlara şaxələnən yollar beynəlxalq standartlara cavab verən səviyyədə yenilənir.

Azərbaycan müharibədən çıxan (artıq 6 ildir) bir ölkədir. Azad edilmiş ərazilərimizdə sürətlə bərpa işləri görülür. Laçına, Kəlbəcərə, Zəngilana, Cəbrayıla, Füzuliyə, Ağdama, işğaldan azad edilmiş rayonlarımızın hər birinə yollar çəkilib.

Yol həm də turizmdir. Ölkəmiz hər il minlərlə turistin üz tutduğu ünvanlardan olduğu, həm də turizmə hər fəsil qoyun açdığı üçün illərdir ki, turistik bölgələrimizə gedən yollar abadlaşdırılır.

Turizm bölgəsi olan Qəbələmizdə də yol infrastrukturunun inkişafına 2026-cı ildə ümumilikdə 8,9 milyon manatdan çox vəsait ayrılaraq rayon daxilində və kəndlərində əsaslı təmir-tikinti və yenidənqurma işləri həyata keçirilir. Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən şəhər mərkəzindəki küçələrin, səkilərin və istirahət parklarının əsaslı təmiri və abadlaşdırılması üçün büdcə vəsaitləri ayrılaraq yenidənqurma tədbirlərinə başlanılıb. Bu çərçivədə mərkəzi küçələrdə köhnəlmiş asfalt örtüyünün yenilənməsi və hamarlanması, piyadaların rahatlığı və təhlükəsizliyi üçün səkilərin təmir olunması və yeni tamet daşlarının döşənməsi, şəhərin estetik görünüşünü yaxşılaşdırmaq üçün gecə işıqlandırılması sistemlərinin və yönləndirici nişanların yenilənməsi aparılır.

Layihələr əsasən kənd yollarının asfaltlanması, magistralların təhlükəsizliyinin artırılması və Muğanlı-İsmayıllı-Qəbələ yolunun təkmilləşdirilməsinə yönəlib.

Yol-nəqliyyat infrastrukturunu müasir standartlara çatdırmaq məqsədilə bölgədə dövlət büdcəsindən əlavə olaraq mərhələli şəkildə 2 milyon və 6.8 milyon manat həcmində infrastruktur layihələri icra olunur. Bakıdan Qəbələyə və şimal-qərb bölgəsinə gedən ən qısa marşrut olan Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin rekonstruksiyası və 2 zolaqdan 4 zolağa genişləndirilməsi layihəsi yekunlaşdırılma mərhələsindədir. Yeni layihə ilə yolun uzunluğu 9.7 km qısalaraq 76.8 km təşkil edir. Sürüşmə zonasının qarşısını almaq üçün marşrut boyunca tunellər, asma körpülər və aşırımlar inşa olunub.

Eyni zamanda Qəbələ - Oğuz - Şəki və Qəbələ - Ağdaş istiqamətlərində təmir və örtüyün yenilənməsi işləri davam edir. Bum, Tikanlı, Abrıx və ətraf kəndləri rayon mərkəzi ilə rahat əlaqələndirən yeni yol layihələri və Bum çayı üzərindəki müasir körpü kimi infrastruktur obyektləri istismardadır. Tufandağ Kompleksi, Nohur göl, Vəndam qəsəbəsi, Dəmiraparançayı hövzəsi və ətraf istirahət mərkəzlərinə aparan yollarda asfalt-beton örtüyünün yenilənməsi, yol nişanlarının və təhlükəsizlik baryerlərinin quraşdırılması həyata keçirilir.

Qəbələ Dəmir Yolu Vağzalı və Hava Limanı istiqamətindəki birləşdirici avtomobil yollarının ötürücülük qabiliyyəti yüksəldilib, turist axınına uyğun olaraq nəqliyyat hərəkəti optimallaşdırılıb.

**İlahə EYVAZLI.**

# Şəhərsalma, memarlıq və mediasiya

Müasir dövrdə şəhərlərin sürətli inkişafı şəhərsalma və memarlığın rolunu artırmışdır. Yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun genişləndirilməsi və şəhərlərin davamlı inkişafı zamanı müxtəlif maraqların toqquşması qaçılmaz olur. Bu cür hallarda mediasiya mübahisələrin sülh yolu ilə həllinə kömək edən vacib mexanizim kimi çıxış edir.

Şəhərsalma yaşayış məntəqələrinin planlaşdırılması, təşkili və inkişaf etdirilməsi ilə məşğul olan fəaliyyət sahəsidir. Şəhərsalmanın əsas məqsədi insanların rahat və təhlükəsiz yaşayışını təmin etməkdir.

Şəhərsalma zamanı aşağıdakı məsələlər nəzərə alınmalıdır.

**Ərazinin planlaşdırılması:**

- Nəqliyyat sisteminin təşkili:
- Yaşayış və ictimai binaların yerləşdirilməsi:
- Yaşayış zonalarının yaradılması:
- Ekoloji təhlükəsizliyin təmin olunması və sair.

Düzgün şəhərsalma şəhərin iqtisadi və sosial inkişafına müsbət təsir göstərir.

Memarlığın mahiyyəti və cəmiyyətdə rolu

Memarlıq insanların yaşaması və fəaliyyət göstərməsi üçün tikililərin layihələndirilməsi sənətidir. Memarlıq yalnız bina tikmək deyil, həm də estetik və funksional mühit yaratmaq deməkdir.

- Rahat yaşayış mühitinin yaradılması;
- Şəhərin memarlıq görünüşünün formalaşdırılması;
- Tarixi və mədəni irsin qorunması;
- Ekoloji və enerjiyə qənaətli halların tətbiqi.

Müasir memarlıqda davamlı inkişaf və ya yaşıl tikinti prinsipləri xüsusi əhəmiyyət daşıyır.

**Şəhərsalma və memarlıq arasındakı əlaqə**

Şəhərsalma və memarlıq bir-birini tamamlayan sahələrdir.

Şəhərsalma şəhərin ümumi planını müəyyən edir, memarlıq isə həmin plan daxilində tikililərin layihələndirilməsini həyata keçirir.

Məsələn, yeni yaşayış məhəlləsinin salınması zamanı şəhərsalma yolların, parkların və sosial obyektlərin yerini müəyyənləşdirir, memarlıq isə binanın forma və görnüşünü müəyyən edir.

Bu iki sahənin düzgün əlaqələndirilməsi şəhərlərin daha səmərəli və estetik inkişafını təmin edir.

**Şəhərsalma və memarlıq sahəsində yaranan mübahisələr**

Şəhərsalma lahiyələrinin həyata keçirilməsi zamanı müxtəlif mübahisələr yarana bilər.

**Bunlara daxildir:**

-Torpaq istifadəsi ilə bağlı mübahisələr;

-Tikinti layihələrinə sakinlərin etirazları;




-Tarixi abidələrin qorunması məsələləri ;

-Ekoloji narahatlıqlar;

-İnvestorlar və yerli əhali arasında fikir ayrılıqları;

-Kənar təsirlər və digər mübahisələr.

Belə mübahisələr bəzən layihələrin gecikməsinə və əlavə xərclərə səbəb olur

**Mediasiya anlayışı**

Mediasiya mübahisələrin məhkəmədən kənar həlli üsullarından biridir. Bu prosesdə neytral şəxs olan mediator tərəflər arasında dialoqu təşkil edir və qarşılıqlı razılığın əldə olunmasına kömək edir.

Mediasiyanın əsas pirinsipləri:

- Könüllülük;
- Tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı:
- Konfidensiallıq (məxfilik) :
- Mediatorun qərəzsizliyi və müstəqilliyi:
- Mediasiya prosesinə müdaxilənin yolverilməzliyi:

Şəhərsalma və memarlıq sahəsində mediasiyanın əsas üstünlükləri bunlardır:

**Vaxta qənaət**

Məhkəmə prosesləri uzun müddət davam edə bilər, mediasiya isə daha sürətli nəticə verir.

**Xərclərin azadılması**

Tərəflər əlavə məhkəmə və hüquqi xərclərdən yayınırlar.

**Münasibətlərin qorunması**

Gələcək əməkdaşlıq imkanları saxlanılır.

**Davamlı həllər**

Qərar tərəflərin iştirakı ilə qəbul edildiyi üçün onun icrası daha asan olur.

**Şəhərsalma və memarlıq sahəsində mediasiyanın tətbiqi**

Mediasiya şəhərsalma və memarlıq sahəsində mühüm əhəmiyyətə malikdir.

**Onun tətbiq sahələrinə aşağıdakılar daxildir:**

-Tikinti şirkətləri ilə sakinlər arasında mübahisələr;

-Torpaq mübahisələri;

- İctimai layihələrə dair narazılıqlar;

-Tarixi və mədəni irsin qorunması ilə bağlı müzakirələr;

-Əmək mübahisələri;

-Əmlak mübahisələri;

Mediasiya tərəflərin maraqlarını nəzərə alaraq daha çevik və səmərəli həll yolları təqdim edir.

**Mediasiyanın üstünlükləri**

Mediasiyanın üstünlükləri çoxdur. Ən əsası qərar tərəflərin iştirakı ilə qəbul edildiyi üçün onun icrası daha asan olur. Burada tərəflər vaxta və xərclərə qənaət etmək imkanı qazanırlar.

**Nəticə**

Nəticə olaraq qeyd etmək olar ki, şəhərsalma və memarlıq insanların həyatı, yaşayış səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Bu sahələrdə yaranan mübahisələrin səmərəli həlli üçün mediasiya mühüm vasitədir.

Mediasiya qarşılıqlı anlaşmanı gücləndirir, mübahisələrin sülh yolu ilə həllinə imkan yaradır və daha dayanıqlı şəhər mühitinin formalaşmasına töhfə verir.

**Ədalət ƏLIYEV,**
**Qəbələ Mediasiya Təşkilatının rəhbəri.**